Azərbaycan.- 2021.- 29 aprel. S. 3.

# Dövlət Sərhəd Xidmətində görkəmli oftalmoloq Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümü münasibətilə tədbir

Aprelin 28-də Dövlət Sərhəd Xidmətində (DSX) görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümü münasibətilə tədbir keçirilib.



Xidmətin qadın hərbi qulluqçuları Fəxri xiyabanda Zərifə xanım Əliyevanın əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə tər çiçək dəstələri düzüblər.

Dövlət Sərhəd Xidmətinin Aparatında dünya şöhrətli alim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən sərgi nümayiş etdirilib, istedadlı alim, bacarıqlı pedaqoq, qayğıkeş ana olan Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti barədə məlumat verilib.

Tədbirdə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olan Zərifə xanımın elm üçün gözəl tədqiqatçı, övladlarına qayğıkeş valideyn və nənə olduğu qeyd edilib. Novator alimin dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir alim, həkim üçün həyat, mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Zərifə Əliyevanın oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. 150-dən çox elmi əsəri, 10 monoqrafiyası, göz xəstəlikləri üzrə elmi-tədqiqat işləri akademik Zərifə xanım Əliyevaya böyük şöhrət qazandırıb və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırıb.

Tədbirdə görkəmli alim, nəcib insan olan Zərifə Əliyevanın xatirəsinin qədirbilən xalqımızın yaddaşında əbədi yaşayacağı qeyd edilib.

***"Azərbaycan"***